

Sentyabrın 27-si, Azərbaycan Respublikasında Anım Günü yaxınlaşır. Məlum olduğu kimi, ötən il məhz həmin gün işğalçı Ermənistanın Azərbaycana qarşı xaincəsinə həyata keçirdiyi növbəti hərbi təcavüzə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızı azad etmək məqsədilə elliklə silaha sarıldı. Beləcə, şanlı və müqəddəs Vətən müharibəsi başlandı.

# Xalqımız Vətən şəhidlərinin əziz xatirəsini heç vaxt unutmayacaq

Məlumdur ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən mübarizədə üç minə yaxın əsgər və zabitimiz şəhid olmuş, xeyli sayda hərbçimiz yaralanmışdır. Tarixi torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir.

Vətənin azadlığı yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Biz şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik, qazilərimizə uca Allahdan cansağlığı diləyirik.

Dünyada xalqlar, millətlər çoxdur. Aqillər deyib ki, o xalq, o millət böyükdür ki, ağır, taleyüklü məqamlarda Vətən uğrunda canından keçməyi bacarır. Tam qətiyyətlə demək olar ki, Azərbaycan xalqı məhz belə mərd, qəhrəman xalqlardan biridir.

2020-ci ilin payızı ölkəmiz üçün çox uğurlu və əlamətdar olmuşdur. Belə ki, ötən il 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Qarabağ cəbhəsində əldə etdiyimiz parlaq qələbələr nəticəsində düşmən Kəlbəcər, Ağdam və Laçın rayonlarını bir güllə belə atılmadan Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Azərbaycan İkinci Qarabağ müharibəsində şanlı zəfər çalmış ölkədir. Bununla da, xalqımızın 30 illik torpaq həsrətinə son qoyulub. Azərbaycan bayrağı bu gün külli-Qarabağda sonsuz bir qürurla dalğalanır! Hər bir xalq üçün bundan böyük qürurverici səadət, bəxtiyarlıq ola bilərmi? Xeyr, ola bilməz!

Bir daha qeyd etmək istəyirəm. Biz bir qədirbilən xalq olaraq, ağır döyüşlərdə şirin canlarından keçən şəhidlərimizi heç vaxt unutmayacağıq, onların əziz xatirəsini daim hörmət və ehtiramla anacağıq. Allah onların hər birinə qəni-qəni rəhmət eləsin! Azərbaycan öz qaziləri – mərd, igid, qorxubilməz, qeyrətli oğulları ilə də haqlı olaraq fəxr edir!

Möhtərəm Prezidentimiz İlham Əliyev demişdir ki, Azərbaycan Ermənistanı məğlub etməklə, regionu və bütün dünyanı faktiki olaraq erməni faşizmindən xilas etmişdir. Sivil dünya, nəhayət, erməni xislətinin nə olduğunu dərk etdi. Dünya gördü ki, xain düşmən torpağımızı tərk etməyə məcbur olanda oradakı bütün evləri, bağça və məktəbləri necə qəddarcasına dağıtmış, ağacları qırmış, meşələri yandırmışdır. Ermənilərin bu dəhşətli vandallığı bütün dünyanı şoka salmışdır. Onlar öz layiqli cəzalarını mütləq alacaqlar.

Azərbaycan xalqı qurub-yaratmağı sevən və bundan zövq alan xalqdır. İşğaldan azad edilmiş ərazilərdə qısa zaman kəsiyində olduqca böyük işlər görülmüşdür. Orada aparılan bərpa, tikinti-quruculuq işlərinin həcmi və vüsəti hər kəsi yaxşı mənada heyrətləndirir. Qarabağ gözlərimiz önündə dünyanın ən gözəl və inkişaf etmiş məkanlarından birinə çevrilir.

***Anar AĞAYEV,***
***Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru***

Xalq qəzeti.- 2021.- 23 sentyabr.- S.3.